| Xəstəlik sinifi (XBT-10) | K - Həzm sisteminin xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **K58** | Qıcıqlanmış bağırsaq sindromu |
| **K58.0** | Qıcıqlanmış bağırsaq sindromu, ishal ilə |
| **K58.9** | Qıcıqlanmış bağırsaq sindromu, ishal olmadan |
| **K59** | Bağırsağın digər funksional pozğunluqları |
| **K59.0** | Qəbizlik |
| **K59.1** | Funksional ishal |

## Müalicə

Qıcıqlanmış bağırsaq sindromunun müalicəsinə daxildir:

psixoterapiya (relaksasiyadan başqa istənilən növ psixoterapiya);

qidalanma və həyat tərzini düzəltmək üçün tədbirlər:

siqaret çəkməkdən imtina, pəhrizin normallaşdırılması, bağırsaq gigiyenasında təlim və bağırsaq hərəkəti rejiminin qurulması (qəbizlik zamanı), davamlı meteorizm olduqda pəhrizdən istifadə etməklə fermentativ di- və oliqosaxaridlərin məhdudlaşdırılması, QSİƏP və bağırsaq simptomları və ya kolit kimi yan təsiri olan digər dərmanların istifadəsi ilə bağlı ehtiyatlılıq;

dərman müalicəsi, bağırsaq təzahürlərinin əsas simptomu ilə müəyyən edilir:

ağrı sindromunda - bağırsaq funksiyası pozğunluqları zamanı istifadə olunan dərmanların , 4-8 həftə ərzində, zəruri hallarda, uzunmüddətli istifadəsi mümkündür:

***Otilonium bromide (Otilonium bromide)*** 40 mq gündə 3 dəfə;

***Mebeverin hidroxlorid (Mebeverine hydrochloride)*** 200 mq x 2 dəfə/gün;

***Trimebutin (Trimebutine)*** gündə 3 dəfə 100 mq;

***Hyossin butilbromid (Hyoscine butylbromide)*** gündə 3 dəfə 10 mq;

qəbizlik üçün - laksatif dərmanlar, təzahürlərin şiddəti və müalicəyə cavab nəzərə alınmaqla, dozalar, rejim və müalicə müddəti fərdi olaraq seçilir: ***Bisakodil (Bisacodyl)*** 1-2 tablet (5-10 mq) gecə və ya 1-2 rektal şam;

***Laktuloza (Lactulose)*** 15-45 ml/gün sonradan 10-25 ml/gün saxlama dozasına keçid ilə;

***Makrogol (Macrogol)*** 4000 gündə 1-2 paket (10-20 q);

ishal zamanı - tək dozada ***Loperamid (Loperamide)*** 2 mq, "tələb üzrə" rejimində;

meteorizm zamanı - ***Simetikon (Simeticone)*** əsasında dərmanlar 40-80 mq gündə 2-3 dəfə, "tələb üzrə" rejimində;

yuxarıda göstərilən terapiyanın təsiri, bağırsaq simptomlarını azaltmaq üçün kifayət deyilsə, kiçik dozalarda trisiklik antidepresantlar istifadə olunur:

***Amitriptilin (Amitriptyline)*** 8-12 həftə ərzində 10-50 mq/gün;

yuxarıda göstərilən terapiyanın təsiri olmadıqda, probiyotiklər orta terapevtik dozalarda, 4 həftə ərzində;

Xəstənin müalicəsinin effektivliyinə, şikayətlərin aradan qaldırılması üçün klinik olaraq nəzarət edilir.

## Ədəbiyyat


**Клинический протокол «Диагностика и лечение пациентов с**

**заболеваниями органов пищеварения» (утвержден постановлением Министерства здравоохранения Республики Беларусь от 01.06.2017 № 54)**

**https://minzdrav.gov.by/upload/dadvfiles/CProtokol/%D0%9A%D0%9F%20%D0%94%D0%B8%D0%B0%D0%B3%D0%BD%D0%BE%D1%81%D1%82%D0%B8%D0%BA%D0%B0%20%D0%B8%20%D0%BB%D0%B5%D1%87%D0%B5%D0%BD%D0%B8%D0%B5%20%D0%BF%D0%B0%D1%86%D0%B8%D0%B5%D0%BD%D1%82%D0%BE%D0%B2%20%D1%81%20%D0%B7%D0%B0%D0%B1%D0%BE%D0%BB%D0%B5%D0%B2%D0%B0%D0%BD%D0%B8%D1%8F%D0%BC%D0%B8%20%D0%BE%D1%80%D0%B3%D0%B0%D0%BD%D0%BE%D0%B2%20%D0%BF%D0%B8%D1%89%D0%B5%D0%B2%D0%B0%D1%80%D0%B5%D0%BD%D0%B8%D1%8F%2001.06.2017%20%E2%84%96%2054.pdf**